*Araştırma Makalesi/Research Article*

# BENGİ

**Dünya Yörük-Türkmen Araştırmaları Dergisi**
*BENGİ World Journal of Yörük-Türkmen Studies*
*https://dergipark.org.tr/tr/pub/bengi*

**ISSN: 2717-6584**

## Azərbaycan Qəzetində (1947-1949) Milli Publisistika və Maarifçiliyə Baxış

*A Review of National Journalism and Enlightenment in "Azerbaijan" Newspaper (1947-1949)*

**doi**: 10.58646/bengi.1262395

**Geliş/Received:** 09.03.2023 **Kabul/Accepted:** 09.08.2023

**Ali FARHADOV***

**Özet**

Məqalədə S.C.Pişəvərinin ilk rəhbəri olduğu Azərbaycan Demokrat Firqəsinin (ADF) orqanı olan "Azərbaycan" qəzetinin əsasən 1947-1949-cu il nömrələri əsasında İran Azərbaycanında milli maarifçiliyə baxış təqdim edilmişdir. Qəzet 1945-1946-cı illərdə ADF hökuməti dövründə Təbrizdə və ADF-nin məğlubiyyəti səbəbilə 1947-1949-cu illərdə Bakıda əski əlifba ilə Azərbaycan dilində nəşr olunmuşdur. Qəzetin 1945-1946-cı illərdə 381 nömrəsi, 1947-1949-cu illərdə 128 nömrəsi çap olunmuşdur. Bizdə olan məlumata görə 1947-1949-cu il nömrələri təkcə Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələrin elmi-fond şöbəsində qorunur.

"Azərbaycan" qəzetində Qacar və Pəhləvi hakimiyyətinə tənqidi münasibət, ictimai-siyasi, iqtisadi, mədəni proseslərə baxış, dövrün inqilabçı və ziyalılarının əsərlərindən nümunələr, ADF-nin fəaliyyəti və s. məsələlər yer alır. Məqalədə mövzunun geniş təqdimi üçün

* **Sorumlu Yazar/Corresponding author:** Doç.Dr., Milli Azerbaycan Tarihi Müzesi, e-posta: ali_farhadov@yahoo.com, Orcid: 0000-0002-9322-3670.

**Atıf/Citation:** Farhadov, A (2023). Azərbaycan Qəzetində (1947-1949) Milli Publisistika və Maarifçiliyə Baxış. *BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi*. 2023 *(2),* 131-149.

qəzetin 1945-1946-cı il nömrələrindən, o cümlədən dövrün tarixini işıqlandıran digər qaynaqlardan, S.C.Pişəvərinin çıxış, məqalə və s. əsərlərindən, müxtəlif ədəbiyyatlardan istifadə edilmişdir.

**Anahtar Kelimeler**: "Azərbaycan" Qəzeti, Elm, Maarifçilik, Pişəvəri, Publisistika, Təhsil.

**Abstract**

The article presents an overview of national enlightenment in Iran-Azerbaijan based mainly on the 1947-1949 issues of the *Azerbaijan* newspaper, an organ of the Azerbaijan Democratic Party (ADP) headed by S.J. Pishevari. The newspaper was published in the Azerbaijani language in the old alphabet in 1945-1946 in Tabriz during the ADP government and in Baku in 1947-1949 due to the defeat of the ADP. 381 issues of the newspaper were published in 1945-1946, and 128 issues in 1947-1949. According to the information we have, the numbers of 1947-1949 are preserved only in the scientific fund department of Documentary sources of the National Azerbaijan History Museum. In the "Azerbaijan" newspaper, there is a critical attitude towards the Qajar and Pahlavi authorities, an overview of socio-political, economic and cultural processes, examples from the works of revolutionaries and intellectuals of the time, the activities of the ADP, etc. issues are included. For a broad presentation of the topic in the article, the 1945-1946 issues of the newspaper, including other sources that illuminate the history of the period, S.J. Pishevari's speech, article, etc. works, various literatures were used.

**Key words:** Pishevari, "Azerbaijan" newspaper, science, education, journalism, enlightenment.

**Giriş**

S.C.Pişəvəri (1893-1947) əslən Cənubi Azərbaycandan olsa da, kiçik yaşlarında ailəsi ilə birgə Bakıya köçmüş, orta məktəbi burada bitirmiş, Bakının Xırdalan kəndində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, İran Sosial-Demokrat (İctimaiyyun Amiyyun) Firqəsinin Bakıdakı iclaslarında iştirak etmiş, 1918-ci ildə İran kommunistlərinin Ədalət Firqəsinə qoşulmuş, təşkilatın "Hürriyyət" qəzetinin redaktoru olmuşdur. O, marksizmə və sosial-demokratik ideyalara inanır və İran xalqının qurtuluşunu bunda görürdü. O, 1920-ci ildə Ədalət Firqəsi tərəfindən İranda Mirzə Kiçik xanın rəhbərlik etdiyi Gilan inqilabına dəstək olması üçün Rəştə göndərilmişdi (Tağıyeva və d., 2000: 249-251). S.C.Pişəvəri özü 1920-ci illərdə İran Kommunist Partiyasının məsul katibi və sovet dəstəkli Gilan Respublikasının Xarici işlər naziri kimi rəhbər vəzifələrdə olmuşdur (Pişəvəri, 2005: 12-15).

Gilan inqilabının məğlubiyyətindən sonra o, Tehranda hökumətə müxalif İran Həmkarlar Təşkilatının "Həqiqət" qəzetinin baş redaktoru olur və tənqidi məqalələri ilə qəzetin səhifələrində çıxış edir və son nəticədə qəzetin nəşri qadağan edilir (Tağıyeva və d., 2000: 252). İrandakı ictimai-siyasi vəziyyət, xüsusilə 1931-ci ildə İranda kommunizm təbliğatının rəsmən qadağan edilməsi onu zahirən də olsa kommunizm şüarlarından imtina etməyə məcbur etmişdi. Onun özü 1930-1940-cı illərdə Tehranda Qəsri-Qacar zindanında kommunistlik ittihamı ilə həbsdə olarkən müstəntiqə verdiyi ifadədə qəsdən etmədiyi günah və səhvlərə görə əlahəzrət şahdan əfv olunmasını xahiş etmiş (Rəhimli (Bije), 2019: 120) və belə demişdir:

*"Mən daha bu əqidədə deyiləm. Bu əqidənin İranda ayaq tutması çox tezdir. Kommunistlər fəhlə sinfinə arxalanırlar, onların dayağı bu sinifdir, bu sinif isə İranda yox dərəcəsindədir. Təsəvvür etmirəm ki, heç 100 il bundan sonra da fəhlələr bir sinif kimi ortaya çıxsın və millətimizin əksəriyyətini təşkil edə bilsin"* (Rəhimli (Bije), 2019: 122).

Lakin Pişəvəri siyasi şəraitə uyğun hərəkət edirdi. SSRİ-nin və Böyük Britaniyanın tələbi ilə 1941-ci ildə Rza şah hakimiyyətdən getdikdən sonra həbsdən azad olan S.C.Pişəvəri Tehranda "Ajir" qəzetinin redaktoru kimi fəaliyyətə başlayır və İran parlamentinə millətvəkili seçilir. Onun millətvəkilliyini Tehran hökuməti qəbul etməsə də, o, 3 sentyabr 1945-ci ildə Azərbaycan Demokrat Firqəsini quraraq, firqənin "Azərbaycan" qəzetini nəşr edərək milli müstəqilliyə gedən yolu açır. S.C.Pişəvərinin ADF rəhbəri seçilməsində Sovet Azərbaycanının rəhbəri M.C.Bağırov böyük rol oynamış, o, S.C.Pişəvərini həm keçmiş kommunist, həm də "demokratik dairələrdə böyük nüfuzu və hörməti olan şəxs" kimi tövsiyə etmişdi (Həsənli, 1998: 204-205).

S.C.Pişəvərinin böyük dövlətlərin xarici işlər nazirlərinə göndərdiyi müraciətdə deyilirdi: "*İranda beş milyon nüfusa malik olan biz azərbaycanlıların vəziyyəti daha təhəmmül edilməzdir. Biz bütün İranda həqiqi demokrasi üsulun bərpasının və Azərbaycan xalqına daxili azadlıq və muxtariyyət verilməsini, ümum məmləkətin adilanə qanunlarını gözləməklə bərabər, Azərbaycanın öz sərneviştini (tale-Ə.F.) özü təyin etməsini istəyirik*" (*Qızıl səhifələr*, 1946-a: 38-39). Məhz sovet hökumətinin dəstəyi ilə 1945-ci ilin 12 dekabrında (21 Azər) Cənubi Azərbaycanda Pişəvəri rəhbərliyində ADF hökuməti quruldu.

İranda 1925-ci ildən hakimiyyətdə olmuş Pəhləvi monarxiyasına qarşı mübarizə olan 1945-1946-cı illərin "21 Azər" hərəkatı S.C.Pişəvərinin öz ifadəsi ilə desək, "*İranın istiqlaliyyətini və bütövlüyünü hifz etməklə bərabər milli ehtiyaclarımızı aradan qaldırmaqda azad olmağı*" qarşısına məqsəd qoymuşdu (Pişəvəri, 2016: 32). Öz həyatını İran və Azərbaycan xalqlarının azadlığı uğrunda qurban verən S.C.Pişəvəri Gilan inqilabçısı Mirzə Kiçik xanın bu sözlərini şüar etmişdir: "*Tehranın abad edilməsi üçün bütün İran bərbad edilib. İranı abad etmək üçün Tehranı bərbad etmək lazımdır*" (Pişəvəri, 2016: 67). S.C.Pişəvəri göstərirdi ki, Tehranın şah hökuməti xalqın azadlıq hərəkatını boğur, Səttarxan, Şeyx Xiyabani, Mirzə Kiçik xan kimi azadlıq qəhrəmanlarını məhv edir (Pişəvəri, 2016: 67).

S.C.Pişəvərinin yaradıcılığı, o cümlədən, onun təsis etdiyi Azərbaycan Demokrat Firqəsinin (ADF) və Milli Hökumətin orqanı (Xoşginabi, 1948-a: 4) olan "Azərbaycan" qəzeti milli əsaslara söykənirdi. Qəzetin rəsmi dilinin Azərbaycan dili olduğunu vurğulayan və yazıçıları bu məsul işə ciddi yanaşmağa dəvət edən S.C.Pişəvəri yazırdı:

> *"Ruznaməmiz ("Azərbaycan" qəzeti-Ə.F.) Azərbaycan dilinə artıq əhəmiyyət verəcəkdir. Bizim dilimiz düşmənlərin boş iddialarına baxmayaraq çox geniş və qəni (zəngin-Ə.F.) bir dildir. Azərbaycan yazıçıları qəbul etdikləri bu çətin və ağır vəzifəni iman və əqidə ilə ifa etməklə dilimizin gözəlliyini və onun tərəqqi və təkamülünü təmin edəcəklərinə bizim ciddi imanımız vardır"* (*Qızıl səhifələr*, 1946: 13).

"Azərbaycan" qəzetində Qacarlar və Pəhləvilər dövründə Azərbaycan tarixinin və mədəniyyətinin araşdırılması əsas yerlərdən birini tutur. S.C.Pişəvəri öz əsərlərində və redaktoru olduğu "Azərbaycan" qəzetində monarxiyaya qarşı məşrutə (konstitusiya-Ə.F.) inqilabına, dövrün görkəmli ziyalılarına xüsusi yer ayırmışdır.

XX əsrin əvvəllərində Təbriz həm də mədəni mərkəzlərdən biri idi. Bu dövrdə Mirzə Həsən Rüşdiyyənin tətbiq etdiyi qabaqcıl təlim üsulu İranda geniş yayılmışdı. M.Tərbiyət *Danişməndani-Azərbaycan* əsərində yazır ki, M.H.Rüşdiyyə M.F.Axundzadə kimi əlifba

islahatından ilham alaraq, Cənubi Azərbaycanda sövti üsulla (səs, fonetika) yazılmış ilk dərslikləri (*Vətən dili, Ana dili*) yazmışdı (Tərbiyət, 1967: 31; Məmmədli, 2009: 19). *Vətən dili* adlı dərslik 1905-ci ildə türk (Azərbaycan) dilində Təbrizdə nəşr edilmişdi (Beregian, 1988: 47). *Vətən dili* kitabı 1917-1918-ci ilə qədər Qafqaz və Türküstanın məktəblərində ibtidai sinif vəsaiti kimi tədris olunmuşdu (Sərdariniya, 2014: 109). S.C.Pişəvəri bu əsəri "Azərbaycan maarifi tarixində misilsiz bir əsər" adlandırmışdır (Pişəvəri, 2016: 128). M.H.Rüşdiyyə öz məktəblərində Azərbaycan türkcəsini də tədris edirdi (*Cənubi Azərbaycan,* 1987: 418). S.C.Pişəvərinin redaktoru olduğu "Azərbaycan" qəzetində M.H.Rüşdiyyənin milli pedaqoji fəaliyyəti təbliğ edilir, o, "*böyük xalq və maarif xadimi*" adlandırılırdı ("Azərbaycanın böyük xalq və maarif xadimi Rüşdiyyə", 1945: 1).

"Azərbaycan" qəzetində M.Ə.Talıbov, Z.Marağayi kimi Cənubi Azərbaycan ziyalıları da təbliğ edilir, oxuculara məlumat verilirdi. S.C.Pişəvəri İran məşrutə inqilabını, bu hərəkatda Azərbaycanın rolunu anlamaq üçün "Talıbovun kitablarını, *İbrahimbəyin səyahətnaməsi* kitabını oxuyun" (Pişəvəri, 2016: 16) deyə tövsiyə edirdi. "Azərbaycan" qəzetində məşrutə fədaisi və "Azadistan" hökumətinin qurucusu Şeyx Xiyabani "*Azərbaycanın görkəmli seyidlərindən biri və böyük mütəfəkkir*" adlandırılır, Təbrizdə ilahiyyat elmlərini tədris etdiyi, dini elmlərdə geniş məlumat sahibi olduğu və Kərimxan məscidində xidmət etdiyi qeyd olunurdu (Şeyx Məhəmməd Xiyabani, 1945-a: 2). Qəzetdə Şeyx Xiyabaninin Azərbaycanda xalq azadlığı üçün Qacarlara və xaricilərə qarşı mübarizəsindən bəhs olunur (Şeyx Məhəmməd Xiyabani, 1945-b: 2), onun Təbrizdə nəşr etdiyi "Təcəddüd" qəzeti haqqında da məlumat verilir (Şeyx Məhəmməd Xiyabani. "Təcəddüd", 1945: 2).

Azərbaycan xalqının dünyanın ən qədim və mədəni xalqlarından biri olduğunu vurğulayan "Azərbaycan" qəzeti yazırdı:

> *"Hər xalqın müqəddəratı özü tərəfindən təyin edilməlidir. Dil azadlığı, milli mədəniyyət azadlığı və sair iqtisadi, siyasi və ictimai azadlıqlar bu məsələnin əsas prinsipləridir. Lakin məsum Azərbaycan uşaqları öz əziz ana dillərində təhsil etməkdən məhrum qalmışlar"* (Səməndər, 1945: 1).

Qərb imperialistlərinin sadiq xidmətçisi olan Pəhləvi hakimiyyətini ittiham edən "Azərbaycan" qəzeti onların ölkəni viranəyə döndərdiyini, xalqımızın qəhrəman oğullarını dar ağacından asdığını, on minlərcə əhalini sürgün etdiklərini göstərirdi. Pəhləvilərin təkcə azərbaycanlılara qarşı deyil, bütün İranın vətənpərvər ziyalılarına, zəhmətkeşlərə qarşı irtica

siyasətini qəzet belə qeyd edirdi: "*İrtica qüvvələri İranın namuslu azadixahlarının (azadlıq istəyənlərin-Ə.F.) qanını tökməkdən çəkinmirlər*" (London.., 1945: 1).

"Azərbaycan" qəzeti bu dövrdə ADF hökumətini İranı parçalamaqda ittiham edənlərə belə cavab verirdi: "*Milli muxtariyyət təcziyə və ya ilhaq demək deyildir. Həqiqi demokratlıq fəqət məhəlli və milli muxtariyyət vasitəsilə mümkün ola bilər*" (*Azərbaycan*, 1945: 42, 1-2). Qəzet göstərirdi ki, ADF-nin əsl məqsədi Azərbaycanı İrandan ayırmaq yox, İranda demokratiya və İranın bütün xalqlarına milli-mədəni hüquqlarını verməkdir. Lakin eyni zamanda bunu yazırdı:

> *"İranın bu günki sərhədlər içərisində, torpaq bütünlüyünü istəyənlər bilməlidirlər ki, həmin bütünlik fəqət İranda həqiqi demokratik hökumət qurulduğu və digər millətlərin dilinə, adətinə, ənənə və milliyyətinə hörmət edildiyi təqdirdə təmin ola bilər"* ("Azərbaycan Midiyadır..", 1948: 3).

"*Bütün İran həqiqi demokratik üsulun bərpasını və azadlıq verilməsini istəyir*" (London, 1945: 1); "*Yaşasın demokratik Azərbaycan! Yaşasın müstəqil və azad İran!*" (Pişəvəri, 2016: 37) deyən S.C.Pişəvəri təkcə Azərbaycanın yox, bütün İranın azadlığı uğrunda mübarizə aparan görkəmli ictimai-siyasi xadimdir. Lakin Pişəvəri ilk növbədə Azərbaycanın milli hüquqlarını, mədəniyyətini, milli maarifçiliyi qoruyan, inkişaf etdirməyi qarşısına qoyan ictimai-siyasi xadim və ziyalıdır. Onun "Azərbaycan" qəzetinin 1945-ci il nömrəsindəki məqalələrində, nitqlərində bu aydın nəzərə çarpır. "*Milli hökumət xalqımızdan başqa bir şey deyildir*" ("Baş vəzirimiz..", 1946: 1) deyən Pişəvəri ömrünü bu xalqın azadlığına, maariflənməsinə həsr etmişdir. Pəhləvi hökumətinin şovinist dil siyasətini tənqid edən Pişəvəri İranın təhsil ocaqlarında, mədəniyyət mərkəzlərində, hətta Təbrizdəki Elmlər Akademiyasının binasında Azərbaycan dilində danışmağa icazə verilmədiyini bildirir, bu alçaq siyasətə ADF hökumətinin son qoyduğunu göstərirdi. "*Maarifsiz bir millət yaşaya bilməz*" ("Baş vəzirimiz..", 1946: 5) deyən S.C.Pişəvəri Azərbaycan müəllimlərini və maarifçilərini vətən övladlarına məhəbbət və azadlıq eşqi ilə dərs keçmələrini, onları aydınlatmalarını istəyirdi. S.C.Pişəvəri qeyd edirdi ki, nəinki Azərbaycanın, hətta İranın bütün xalqları ADF-dən demokratiya, insan haqları, maarifçilik yardımı gözləyir.

21 Azər (12 dekabr) istiqlal günü olmaqla yanaşı, bir il sonra, 1946-cı ildə həm də ADF hökumətinin süqut günü oldu. Beynəlxalq təzyiq qarşısında SSRİ-nin hərbi dəstəyini geri çəkməsindən sonra Cənubi Azərbaycanda məhrum qalan on minlərlə azərbaycanlı qətl edildi, evləri dağıdıldı, yandırıldı. Pəhləvi ordusunun işğalı nəticəsində ADF rəhbərliyi Sovet

Azərbaycanına mühacirət etməyə məcbur oldu və firqənin orqanı olan "Azərbaycan" qəzeti Bakıda öz nəşrini davam etdirdi.

**1. Milli Publisistika**

"Azərbaycan" qəzeti cənublu soydaşlarımızın maariflənməsi üçün elm və milli təhsil, maarifçilik problemlərinə, bu problemlərin həlli mövzusunda məqalələrə geniş yer ayırırdı. Qəzetdə Fəthi Xoşginabi, Mirrəhim Vilayi, Əli Şəmidə, Cəfər Müciri, Qafar Kəndli və s. vətənpərvər publisistlərin maarifçilik mövzusundakı əsərlərinə tez-tez yer verilirdi. Şərqşünas alim, yazıçı və şair olan Fəthi Xoşginabi ADF-nin üzvü olmuş, mühacirət dövründə ADF-nin orqanı olan "Azərbaycan" qəzetinin məsul katibi olmuşdur (İsmayılov-b). Onun "Azərbaycan" ruznaməsinin tarixi rolu" adlı məqaləsində "Azərbaycan" qəzetinin ADF-nin fəaliyyətindəki roluna xüsusi qiymət verilib. F.Xoşginabi "Mübarizəmizin yeni mərhələsində Azərbaycan ruznaməsinin tarixi vəzifəsi" adlı məqaləsində qeyd edirdi ki, "Azərbaycan" qəzeti ADF-nin "*ən kəskin silahı, xalqımızın dili və şərəfli mübarizəmizin güzgüsüdür*" (Xoşginabi, 1947: 1). F.Xoşginabi "Biz milli bir maarif yaratmalıyıq" adlı məqaləsində yazırdı:

> *"Bizim məmləkətimizdə kitabların intişar tapmasının (yayılmasının-Ə.F.) qabağını indiyə kimi alıblar. Tariximizdə həqayiqi (həqiqətlər-Ə.F.) göstərməliyik. İndiyə kimi tədris olunan kitablar hamısı keçmiş diktatorluq dəstgahının (sistem-Ə.F.) yadigarıdır. Biz milli fərhəngi (mədəniyyət-Ə.F.) yaratmaq üçün bütün maarif işçilərimizdən kömək gözləyirik"* (Xoşginabi, 1945: 2).

"Azərbaycan" qəzetində Mirrəhim Vilayinin da məqalələri maraq oyadır. M.Vilayinin "Azərbaycan Demokrat Firqəsi Məramnaməsi"nin təhlili başlıqlı silsilə yazılarında ADF-nin proqramı geniş şərh edilir. M.Vilayi yazırdı:

*"Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi ilə yaradılmış milli muxtariyyət beş milyonluq xalqa, İran irticaçı dövləti tərəfindən qadağan olunmuş ana dilini, mədəniyyətini qurmaq üçün imkan yaratdı. Ana dilində xalqımız üçün məktəblər açıb və kitablar nəşr etdi"* (Vilayi, 1948: 4). M.Vilayi ADF hökumətinin etnik, şovinist siyasət güdmədiyini, ölkədə yaşayan bütün xalqlara öz milli-mədəni hüquqlarını, mətbuat azadlığını verdiyini qeyd edirdi.

Milli ədəbiyyatı təşviq edən "Azərbaycan" qəzetində ayrıca "Ədəbiyyat səhifəsi" rublikası var idi və verilən elanlarda da göstərilirdi ki, "ruznaməmizin səhifələri hekayə, məqalə və şeirlər içün açıqdır" (*Azərbaycan*, 1948, 116, 4). Yazıçılara edilən müraciətdə göstərilirdi:

*"Tehran hakimiyyətinin mənfur siyasəti nəticəsində ana dilimizdə yazıb oxumaqdan məhrum olub və öz zəngin ədəbiyyatımızı inkişaf etdirmək imkanından kənarda qalmışıq. Buna görə də firqəmiz indi bu məsələyə əhəmiyyət verir və dilimizin inkişafı içün çalışır. Bu sahədə ruznaməmizin öhdəsinə düşən vəzifə oldıqca mühümdür. Şair və yazıçı yoldaşlarımız xalqımızın xoşbəxt bir həyat və azadlıq uğrunda mübarizəsi, mütərəqqi məfkurə və ideolojisini də müxtəlif tərzlərdə əks etdirməlidir. Yazıçı yoldaşlarımız bu mövzuya əhəmiyyət verməli və öz doğma firqələrinin göstərişi əsasında dilimizi daha da inkişaf etdirməyə çalışmalıdırlar"* (Xoşginabi, 1948-b: 1).

Görkəmli publisist Əli Şəmidə mühacirətdən sonra ADF-nin orqanı olan "Azərbaycan" qəzetinin redaktoru olmuşdur (İsmayılov-a). Onun "İranda mətbuat azadlığı yoxdur" adlı məqaləsində ölkədə həqiqi azad mətbuatın olmadığını, var olanların əksəriyyətinin isə hökumətə satıldığını göstərirdi. Ə.Şəmidə vaxtı ilə alman faşistlərinə məddahlıq edən "İttilaat", "Guşəş", "Mehri-İran", "Sitarə", "Səba" kimi qəzetlərin indi də müstəbid Pəhləvi hökumətinə, Qərb imperializminə xidmət etdiklərini göstərirdi (Şəmidə, 1948: 4).

Ə.Şəmidə İranda din və məzhəbdən siyasi alət kimi istifadə edənləri və onlara bilib-bilmədən tabe olanları da qınayırdı. O, "Məzhəbi təbliğatdır, ya siyasi fəaliyyət!" adlı məqaləsində xalqların azadlıq mübarizəsinə dindən silah kimi istifadə edib mane olanları tənqid edirdi. Ə.Şəmidə yazırdı:

*"Millətlər və xalqların dini və milli təəssüblərindən istifadə edib milli və məzhəbi ədavət və müharibələr qızışdırmaq və başqa fitnəkarlıqlarla xalqların müstəqil və dinc həyat qurmalarına maneəçilik törədirlər. Habelə məzhəbi təbliğat pərdəsi altında irticai fikirləri yayıb, xalqların məfkurəsini zəhərləmək və uydurmaqla kütlələri azadlıq mübarizəsindən çəkindirmək istəyirlər"* (Şəmidə, 1949: 4).

Ə.Şəmidə xarici imperialist dövlətlərin istismar etdikləri xalqları zəiflətmək üçün işğalçı ordudan və ya mütəxəssislərdən olduğu kimi, din adamlarından da istifadə etdiyini, İranda fəaliyyət göstərən xarici missionerlərin imperialistlərin agenti olduğunu yazırdı (Şəmidə, 1949: 4). Ə.Şəmidə xristian missionerlərinin əsasən Cənubi Azərbaycanda SSRİ əleyhinə fəaliyyət göstərdiyini, eyni zamanda İranı imperialistlərin müstəmləkəsinə çevirməyə çalışdıqlarını göstərirdi.

"Azərbaycan" qəzetində Cəfər Mücirinin də dəyərli məqalələri yer alır. Təbrizli rəssam və yazar C.Müciri öz məqalələrində Azərbaycan mədəniyyət tarixinin müəyyən məsələlərini,

klassik şair və yazıçılarımızı, şah rejiminə qarşı Azərbaycan xalqının mübarizəsini, İran mətbuatında Azərbaycan haqqında gedən məlumatları işıqlandırmışdır.

C.Müciri "Təbriz" adlı məqaləsində Təbriz şəhərinin orta əsrlərdəki ehtişamından, Qətran Təbrizi, Xətib Təbrizi, Şəms Təbrizi, Saib Təbrizi kimi azərbaycanlı şair və sufilərdən bəhs edir, Xaqani Şirvaninin Təbrizi özünə ikinci vətən seçməsindən danışır. Həmçinin məqalədə Təbrizin Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər kimi dövlətlərə paytaxt olmasından bəhs edir. C.Müciri məqalədə Təbrizin tənbəki qiyamındakı, məşrutə hərəkatındakı rolunu, Şeyx Məhəmməd Xiyabaninin azadlıq mübarizəsini, 21 Azər hərəkatını işıqlandırır. Müəllif yazırdı:

> *"21 azər hərəkatı dövründə Təbriz radiosunun xəbərləri "İran kəndli, fəhlələrinin hüsn-rəğbətini cəlb edərək, Tehran mürtəcelərinin biganəpərəst Pəhləvi sülaləsinin ürəyinə ox kimi sancılırdı. Çünki Təbriz milli hökumətimizin islahatından danışırdı. Təbriz Şərq dünyasına elan və isbat edirdi ki, xalqların azadlığı əlçatmaz bir xəyal olaraq qalmayıb, bəlkə mübarizə nəticəsində həyata da keçirilə bilər"* (Müciri, 1948-b: 1).

C.Mücirinin bu məqaləsində Təbrizin bu gözəl günlərinin 21 azər hərəkatının məğlub edilməsilə, Məhəmmədrza şahın ordusunun şəhəri işğal etməsilə sona çatdığı, Təbrizin xarabaxanaya çevrildiyi bildirilir, lakin "*Qoca Təbriz düşmənlərindən intiqam alacaq və bir daha öz təntənəli tarixində yeni iftixar səhifəsi açacaqdır*" deyilir (Müciri, 1948-b: 3).

C.Müciri "Qoy İran mürtəceləri bir daha rüsvay olsunlar!" adlı məqaləsində ölkədə din pərdəsi altında aparılan yanlış dini siyasəti qınayırdı. Müəllif dindən siyasi məqsədlərlə istifadə edən Pəhləvi hökumətini və onun xarici havadarlarını belə tənqid edirdi:

> *"İran mürtəcelərinə istiqamət verən ingilis imperialistləri və onların panislamizm pərdəsi dalında gizlətdikləri fırıldaqların da üstü açılmış olur. Panislamizm pərdəsi altında İran xalqlarının əfkarını (fikirlər-Ə.F.) zəhərləyən mürtəcelərin işi belədir"* (Müciri, 1949-a: 3).

C.Müciri insanları bu dünyada zülmə məruz qoyub, axirət ümidi ilə yaşatmağa çalışanları, "*aclığa, yoxsulluğa dözməyin aqibəti yaxşıdır*" deyənləri tənqid edilirdi (Müciri, 1948-a: 1).

C.Mücirinin "Tehran hökuməti milli abidələrimizin düşmənidir" adlı məqaləsində isə Pəhləvi hökumətinin milli abidələrimizi dağıtması, ana dilimizdə yazılan kitabları yandırması tənqid edilir (Müciri, 1949-b: 4). "Azərbaycan" qəzeti yazırdı ki, "*Tehran hökuməti*

*yurdumuzda ana dilində təhsil olunan məktəbləri bağlayıb onun əvəzində tiryəkxanalar açır. Budur xain heyəti-hakimənin xalqa etdiyi xidmət*" (Əhmədzadə, 1948: 3). C.Müciri göstərirdi ki, "*onların bu düşmənliyi nə xalqımızın mübarizəsini dayandıra bilib, nə də milli varlığımıza nöqsan gətirə bilibdir*" (Müciri, 1949-b: 4). Müəllifə görə bütün bu problemlərin səbəbi isə öz xalqına hörmət etməyən, onların qayğısına qalmayan Pəhləvi hakimiyyətidir və "*İran xalqlarının etiraz səsləri yaxın gələcəkdə bu üsuli-idarənin yıxılacağını nişan verir*" (Müciri, 1949-a: 3).

"Azərbaycan" qəzetində 21 azər hərəkatının aktiv iştirakçısı, təbrizli ədəbiyyatşünas Qafar Kəndlinin də maraqlı məqalələri təqdim edilmişdir. O, özünün "Qubalı Fətəli xan" adlı məqaləsində Azərbaycanın xanlıqlar dövrünü təsvir edir, pərakəndə vəziyyətdə olan xanlıqların mərkəzi hakimiyyətdə birləşə bilmədikləri üçün işğala məruz qaldıqlarını göstərir. Müəllif pərakəndəliyin, mərkəzi hakimiyyətin olmamasını və imperialist dövlətlərin bu vəziyyətdən bacarıqla istifadə etdiklərini belə təsvir edirdi:

> *"Ticarət tamamilə zəifləşdi. Şəhər və kənd həyatı ölgün bir hala düşmüşdi. İqtisadi və siyasi cəhətcə biri-birindən ayrılmış olan dağınıq xanlıqlar daim bir-biri ilə vuruşurdular. Bu da ölkənin təsərrüfat və iqtisadi cəhətdən daha artıq dağılmasına səbəb oldu. Qonşu dövlətlər bu xanlıqları asanlıqla ələ keçirmək içün onların arasındakı daxili mübarizəni şiddətləndirirdilər"* (Kəndli, 1948-b: 4).

Q.Kəndli Fətəli xanın digər xanlıqları Quba ətrafında birləşdirmə cəhdindən danışır və qeyd edir ki, bu dövr qısa sürsə də, *"onun səmərəli fəaliyyəti Azərbaycan şəhərlərinin inkişafında ölkədə təsərrüfat və mədəniyyətin yüksəlişinə səbəb oldu"* (Kəndli, 1948-b: 4). Q.Kəndli məqaləsində Fətəli xanın xanlıqları birləşdirmə cəhdini təqdir edir və yazır ki, bu, *"vahid Azərbaycan uğrunda gedən mübarizənin canlı bir şahididir"* (Kəndli, 1948-b: 4).

Q.Kəndlinin "Azərbaycan milli hökuməti xalqların azadlığını təmin etmişdi" adlı məqaləsində ADF hökumətinin İran xalqlarına azadlıq gətirməsi siyasətindən bəhs edilir. Məqalədə göstərilir ki, Pəhləvi hakimiyyəti İran xalqlarının birləşərək şaha qarşı mübarizəsindən qorxur və bu səbəbdən fars şovinizmi siyasətindən istifadə edir. Müəllif yazırdı:

> *"Mədəniyyət, elm, maarif cəhətdən geridə qalan, fəqr, fəlakət, yoxsulluqla əlbəyaxa olan İran ölkəsində milli təzyiq olduqca şiddətlidir. Fars şovinistləri öz ağalıqlarını başqa xalqlar üzərində təmin etmək və həmçinin fars zəhmətkeşlərini istismar altında saxlamaq üçün onları millətçilik zəhəri ilə zəhərləmək istəyirlər.*

*Onlar İranda yaşayan müxtəlif xalqların bir-biri ilə birləşməsindən qorxurlar"* (Kəndli, 1948-a: 1).

"Azərbaycan" qəzetində Balaş Azəroğlu, Əli Tudə, İbrahim Zakir, Aşıq Hüseyn Cavan, Hökumə Billuri, Mədinə Gülgün və s. şairlərimizin, yazarlarımızın həm ictimai-siyasi, həm milli mədəni-maarifçilik və azadlıq, beynəlmiləlçilik, həm də sosial problemlərin ifşası istiqamətində şeirləri, hekayələri dərc olunurdu. Bu şeirlərdə vətənpərvərlik, milli azadlıq, işğalçı şah rejiminə nifrət əsas yer tutur.

## 2. Milli Maarifçilik Məsələləri

ADF-nin proqramı və ADF hökumətinin siyasəti orta məktəblərdə ana dilində tədrisin, ana dilində universitetin, radio və qəzetlərin nəşrinin yolunu açdı. ADF proqramında yazırdı:

*"Ana dili milli mədəniyyətin tərəqqisi üçün qüdrətli bir vasitə dir. Ona görə balalarımıza bilatəxir (təxirə salmadan-Ə.F.) istər dövlət və istərsə xüsusi mədrəsələrdə öz ana dilimizdə tədris etməlidir. Bunun üçün bilatəxir dərs kitabları və sair tədris ləvazimatı hazırlamaq lazımdır"* (*Qızıl səhifələr*, 1946-b: 67).

Qeyri-azərbaycanlıların da milli hüquqları nəzərə alınaraq proqramda qeyd edilirdi ki, "*Azərbaycanda yaşayan başqa millətlər də öz ana dillərində mədrəsə açmaq haqq və ixtiyari ilə firqəmiz kamilən müvafiqdir*" (*Qızıl səhifələr*, 1946: 67). Bu baxımdan firqə proqramını şərh edən M.Vilayi ölkədə elm və maarifin inkişafı üçün vilayətlərin özünü idarəetmə qurumu olan əncümənlərin yaradılmasını və milli muxtariyyətin şərt olduğunu irəli sürürdü. O, "Azərbaycan Demokrat Firqəsi Məramnaməsinin təhlili" başlıqlı silsilə məqalələrində yazırdı:

> *"İranda yaşayan millətlər əncümən əyaləti və vilayəti qurmaqla özünü idarə etmək, öz milli dilində məktəb, maarif, mədəniyyət yaratması, dövlət təşkilatlarının idarə olunması muxtariyyətin zəruri şərtlərindəndir. İctimai azadlığı, qələm, dil azadlığı hər bir millətin qanuni haqqıdır"* (Vilayi, 1948: 4).

ADF hökuməti dövründə milli maarifçilik siyasəti dövlətin ən prioritet məsələlərindən biri idi. Ölkədə ümumi savadsızlığı ləğv etmək üçün bütün millətlərin hüququnun qorunmasının və yoxsulluğa qarşı mübarizənin vacibliyinə diqqət çəkən "Azərbaycan" qəzeti yazırdı:

> *"Ümumi təlimi icra etmək içün İran xalqlarının hüququna ehtiram qoymaq lazımdır. Azərbaycan milli hakimiyyəti dövründə bu məsələ icra olundu. Ana-atasız uşaqlar tərbiyə evlərində saxlanıldılar. Şəhərlərdə və kəndlərdə ana dilində məktəblər təsis olunmuşdu. Tələbələrə pulsız olaraq kitab verilib və onların*

*təhsil vəsaili (vasitələr-Ə.F.) təmin edilmişdi. Təbrizdəki Darülfünunda (1946-cı ildə açılmış universitet-Ə.F.) 600 nəfər hüdudunda tələbə təhsilə məşğul idilər. Onlara yataqxana, yemək, paltar və bunlardan əlavə aylıq da verilmişdi və beləliklə az bir müddət içərisində ana dilimiz yüksək dərəcədə inkişaf edirdi”* (Əlioğlu, 1948-b: 1).

Pəhləvi hakimiyyətinin təhsilə biganəliyini “Azərbaycan” qəzeti belə təsvir edirdi: *“Dövlət millətin savadlanmasına pul vermir. Çünki savadlanıb öz hüququnu düşünən bir millət əsarət altında qalmaq istəməz”* (Əlioğlu, 1948-a: 4). Təhsilin həddindən artıq bahalı olması yerli mütəxəssislərin artmasına, kasıb uşaqların oxumasına mane olurdu. “Azərbaycan” qəzeti yazırdı:

> *“İranda maarif və məktəblərin qapısı zəhmətkeşlərin balalarının üzünə bağlıdır. Çünki mövcud olan məktəblərin hamısı şəxsi olub və təhsil etmək üçün bu məktəblərdə hər şəxs ayda müəyyən miqdar pul verməlidir. Məsələn, bir nəfər mühəndis və ya həkim olmaq istəsə ibtidai məktəbdən başlamış ali məktəbi qurtarana qədər azı bir neçə min tümən təhsil xərcə verməlidir. Əlbəttə məlumdur ki, bu cür şərait yoxsul uşaqları üçün məqdur (mümkün-Ə.F.) deyil”* (Davudzadə, 1948: 1).

Bu dövrdə azərbaycanlı şagirdlərin orta məktəblərdə ancaq fars dilində təhsil almasının zərərlərini göstərən “Azərbaycan” qəzeti yazırdı ki, bu tələbələr *“axırda nə öz dilini yaxşı bilir, nə fars dilini. Əlbəttə bu qədər uzun müddətdə vaxtın çox hissəsini tutan yalnız fars dilidir”* (Məhəmmədzadə, 1948-a: 4). Nəticədə şagirdlər özlərinə yad olan fars dilini uzun müddətə çətinliklə öyrənməkdən digər fənləri öyrənməyə vaxt tapa bilmirdilər. Pəhləvi hakimiyyəti milli maarifçiliyə zərbə vurmaq üçün azərbaycanlı müəllimləri də hədəf seçmişdi. “Azərbaycan” qəzeti yazırdı:

> *“Tehranın fars Maarif Vəzarətinin (Nazirliyinin-Ə.F.) dəsturu (izni-Ə.F.) ilə azərbaycanlı müəllimlər yığışdırılıb, onların yerlərinə ən mürtəce fars müəllimlərini Azərbaycan uşaqlarını tərbiyə etmək içün təyin edirlər. Nəticədə Azərbaycanın yerli və sabiqəli (təcrübəli-Ə.F.) müəllimləri işsiz qalaraq məcburi surətdə küçələrdə ərizə, məktub yazmağa və yaxud alver etməyə məşğul olurlar”* (Bəxşi, 1948: 1, 4).

Qəzetdə həmçinin göstərilirdi ki, “*müəllim klasda (sinif-Ə.F.) dərs deyərkən İran xalqlarının məhrum olduqları ən sadə hüquqdan danışdıqda Maarif Vəzarəti bu işi kommunistlik təbliğatı adlandırır*” (Şəkibxan, 1948: 1, 4). “*Daneşgah (universitet-Ə.F.)*

*siyasətdən kənar qalmalıdır*" (Şəkibxan, 1948: 4) deyən Pəhləvi hakimiyyəti müəllimləri, tələbələri kommunistlik ittihamı ilə, sürgünlə, həbslə qorxudaraq, diktaturanı gücləndirir, insan haqlarını yox etməyə, azadlıq ideyalarını boğmağa çalışırdı.

Pəhləvi hakimiyyətin istifadə etdiyi digər bir metod da ana dilimizdə olan kitabları nümayişkaranə şəkildə yandırmaq, yox etmək idi. "Azərbaycan" qəzeti yazırdı:

> *"Tehran hökuməti əgər geniş kütlələrin savadlanmasına tərəfdar olsaydı, o, milli hökumətimizin maarif ocaqlarını yıxıb qarət etməzdi. Xalqımızın savadlanmasına imkan yaradan milli hökumətin böyük faydalı təşəbbüsü olan ana dilində çap olmuş kitabları yandırmazdı"* (Müciri, 1949-b: 4).

"Azərbaycan" qəzeti yazırdı ki, "*Bizim kitablarımızı yandırsalar da, hər bir azərbaycanlının ruhunun və ürəyinin ən dərinliklərində şölə çəkən intiqam alovlarını, azadlıq sevgisi alovlarını söndürə bilməyəcəkdirlər*" (Xoşginabi, 1947: 3).

Pəhləvi hakimiyyəti qeyri-farsların milli hüquqlarını pozmaqla yanaşı, onların varlıqlarını yox saymaq və təhqir etmək yolunu da seçmişdi. "Azərbaycan" qəzeti yazırdı:

> *"Tehran radiosundakı verilişdə portaqal satan azərbaycanlılara nisbətlə bütün azərbaycanlıları "portuqalfüruş" adlandırırlar. Bu söz Pəhləvi təbliğatçılarının və şovinist məmurların dilində fars dilində yaxşı danışa bilməyən azərbaycanlıları təhqir etmək üçün istifadə edilir. İndi görək Tehranda "portuqalfüruş" adlandırılan azərbaycanlılar kimlərdir? Bunlar Azərbaycanın fəhlə-kəndliləridirlər. Bunlar ağır maliyyatlar (maliyyə problemləri-Ə.F.) nəticəsində jandarm, ərbab (mülkədar-Ə.F.) və dövlət məmurlarının zülmündən cana gələrək, baş götürüb qaçan Azərbaycan kəndliləridirlər. Cibi dolmaq bilməyən zalım karxanə sahibləri tərəfindən karxanələrdən qovulmuş, işsiz qalmış Azərbaycan kargərləridirlər (işçilər-Ə.F.). Tehran hökumətinin həyasız təhqirinə baxmayaraq bunlar ən şərəfli, ən namuslu və zəhmət sevən azərbaycanlılardırlar"* (*Açıq təhqir*.., 1949: 1, 3).

"Azərbaycan" qəzeti yazırdı:

> *"Millətimizin bəzi əfradının (fərdlər-Ə.F.) Tehran küçələrində portaqal satmaları eyib deyil; Tehran heyəti-hakiməsinin bir ovuc dollardan ötrü İran xalqlarının iqtisadi və siyasi azadlığını amerikalılara satması eyibdir. Şahın xəyanətləri, dərbardakı (saray-Ə.F.) əxlaqsızlıqlar eyib deyil, ancaq gündəlik*

*məaşını (məişət-Ə.F.) təmin etmək üçün azərbaycanlıların portaqal satması eyibdir?"* ("Açıq təhqir..", 1949: 3).

Həmçinin "Azərbaycan" qəzeti yazırdı:

*"Xalqımızın milli varlığını, ana dilimizi inkar edən Pəhləvi şovinistləri "Təbriz radiosunda Azərbaycan dilində danışarkən çox utanmazcasına "məhəlli ləhcədə danışırıq" deyə bir neçə milyonluq millətin dilini "məhəlli ləhcə" adlandırmaqla təhqir edirlər"* (Məhəmmədzadə, 1948-a: 4).

"Azərbaycan" qəzeti ADF hökumətinin süqutundan sonra Təbriz radiosunun mürtəce Pəhləvi hakimiyyətinin əlində bir alətə çevrildiyini, onun bütün vətəndaşların ibtidai təhsil almasına qarşı çıxış etdiyini tənqid edirdi. Qəzet yazırdı:

*"Təbriz radiosu hər sözündə azadixah (azadlıq sevər-Ə.F.) xalqların nifrətini özünə cəlb edir. Bu radio utanmazcasına İran xalqlarına xitabən deyir: "İran milləti" hamısı ibtidai təhsilə malik olsun, onda məmləkətin idarəsində nəinki heç bir tərəqqi görünməz, hətta siyasi cəhətdən geri də qalar, lakin əvəzində beş və ya on nəfər siyasi və alim adamlar İran məmləkətini çox ləyaqətlə idarə edə bilərlər"* (Məhəmmədzadə, 1948-b: 1).

Qəzet Pəhləvilər dövründə orta və ali məktəblərdə ancaq kapitalist və mülkədarlar üçün lazım olan itaətkar və səbirli xidmətçilərin, məmurların yetişdirildiyini, onların ictimai-siyasi maarifçilikdən məhrum edilmələrini tənqid edirdi. Müəllif ADF hökuməti dövründə bu kimi mənfi hallarla mübarizə aparıldığını, nəinki azərbaycanlıların, bütün İran xalqlarının milli-mədəni hüquqlarının qorunmağa çalışdığını bildirirdi (Məhəmmədzadə, 1948-b: 4). Lakin təəssüf ki, ADF hakimiyyətinin ömrü qısa oldu və nəticədə Pəhləvi hakimiyyəti yenidən Azəırbaycan milli mədəniyyətinin, insan hüquqlarının qabağını kəsdi. "Azərbaycan" qəzetində Pəhləvilər dövründə pulsuz təhsilin və ana dilində tədrisatın olmamasının, əksər uşaqların yoxsulluq səbəbilə işləmək məcburiyyətində qalmasının ümumi təhsilə ən böyük maneə olduğu göstərilirdi (Əlioğlu, 1948: 4).

**Sonuç**

Son olaraq deyə bilərik ki, ADF hökuməti məğlub olsa da, öz ideoloji əsaslarını "Azərbaycan" qəzeti vasitəsilə təbliğ edib yaşada bilmişdir. Qəzetdə S.C.Pişəvəri, M.Vilayi, C.Müciri, Ə.Şəmidə kimi publisistlərin, Ə.Tudə, B.Azəroğlu, H.Billuri, M.Gülgün kimi şairlərin əsərlərinin təqdimi Cənubi Azərbaycan həqiqətlərinin oxuculara çatdırılmasında mühüm rol oynamışdır. Qəzet Cənubi Azərbaycanda milli şüurun, milli mədəniyyətin inkişafına böyük təkan vermişdir. S.C.Pişəvəri irsinin, "Azərbaycan" qəzetinin tədqiqi və

araşdırılması təkcə Qacar və Pəhləvilər dövründəki tarixi-mədəni, publisistik, maarifçilik məsələlərini deyil, həm də Cənubi Azərbaycan əhalisinin demokratik xalq hərəkatındakı rolunu, milli azadlıq və mübarizə yolunu tədqiq etmək və təbliğ etmək baxımından əhəmiyyətlidir. Bu sahədə tədqiqatların, araşdırmaların aparılması gənc alimlərin qarşısında duran əsas məsələlərdən biri olmalıdır.

**Kaynakça**

Açıq təhqir, aləni düşmənlik. (1949). "Azərbaycan" qəzeti, 5 yanvar, 1, 3.

"Azərbaycan" qəzeti. (1949). 8 yanvar, 4.

Azərbaycan Midiyadır, Midiya Azərbaycan. (1948). "Azərbaycan" qəzeti, 6 mart, 3.

"Azərbaycan" qəzeti. (1945). 31 oktyabr, 1-2.

Azərbaycanın böyük xalq və maarif xadimi Rüşdiyyə. (1945). "Azərbaycan" qəzeti, 24 sentyabr, 1.

Baş vəzirimiz ağayi Pişəvərinin Daneşsəra salonunda söylədiyi nitqin məzmunu. (1946). "Azərbaycan" qəzeti, 12 fevral, 1, 5.

Beregian S. (1988). Azeri and Persian literary works in twentieth century Iranian Azerbaijan. Berlin: Schwarz.

Bəxşi R. (1948). Azərbaycanda müəllimlərin vəziyyəti. "Azərbaycan" qəzeti, 23 oktyabr, 1, 4.

Cənubi Azərbaycan. *Azərbaycan Sovet Ensiklopediyası*. C. X. (1987). Bakı: ASE Baş Redaksiyası.

Davudzadə. (1948). Quru boş nəsihətlər. "Azərbaycan" qəzeti, 31 iyul, 1.

Əhmədzadə. (1948). Tiryək və tiryəkxanalar. "Azərbaycan" qəzeti, 24 iyul, 3.

Əlioğlu. (1948-a). İran mətbuatının ümumi təlim haqqındakı təklifləri. "Azərbaycan" qəzeti, 17 yanvar, 4.

Əlioğlu. (1948-b). Ümumi təlimin icrasında maneəçilik törədən əsas səbəblər. "Azərbaycan" qəzeti, 21 yanvar, 1.

Həsənli C.P. (1998). *Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945)*. Bakı, "Diplomat" nəşriyyatı.

Xoşginabi F. (1948-a). Azərbaycan ruznaməsinin tarixi rolu. "Azərbaycan" qəzeti, 15 sentyabr, 4.

Xoşginabi F. (1945). Biz milli bir mədəniyyət yaratmalıyıq. "Azərbaycan" qəzeti, 30 dekabr 1945, 2.

Xoşginabi F. (1947). Mübarizəmizin yeni mərhələsində Azərbaycan ruznaməsinin tarixi vəzifəsi. "Azərbaycan" qəzeti, 2 dekabr, 1, 3.

Xoşginabi F. (1948-b). Yazıçılarımıza! "Azərbaycan" qəzeti, 12 iyun, 1.

İsmayılov G. (a). 21 Azər hərəkatının sərhəng (polkovnik) fədaisi Əli Şəmidə. http:.aze.adfmk.com/entries/daxili-x%C9%99b%C9%99rl%C9%99r/21-az%C9%99r-h%C9%99r%C9%99kat%C4%B1n%C4%B1n-s%C9%99rh%C9%99ng-polkovnik--f%C9%99daisi--%C9%99li--%C5%9F%C9%99mi-d%C9%99

İsmayılov G. (b). Fəthi Xoşginabi. http:.aze.adfmk.com/entries/daxili-x%C9%99b%C9%99rl%C9%99r/f%C9%99thi-xo%C5%9Fgi-nabi-

*Qızıl səhifələr*. (1946). Azərbaycan xalqının milli azadlıq yolunda mübarizəsi tarixindən. Təbriz: Elmiyyə mətbəəsi.

Kəndli Q. (1948-a). Azərbaycan milli hökuməti xalqların azadlığını təmin etmişdi. Azərbaycan qəzeti, 9 oktyabr, 1.

Kəndli Q. (1948-b). Qubalı Fətəli xan. Azərbaycan qəzeti, 18 avqust, 4.

London əncüməninə göndərilən teleqraf. (1945). “Azərbaycan” qəzeti, 1945, 1.

Məhəmmədzadə H. (1948-a). Ana dili əbədi musiqi, ömrün qönçəli günlərinin solmaz bir dastanıdır (2-ci məqalə). “Azərbaycan” qəzeti, 24 iyul, 4.

Məhəmmədzadə H. (1948-b). Maarif günəşindən hamı istifadə etməlidir”. “Azərbaycan” qəzeti, 11 sentyabr, 1, 4.

Məmmədli P. *Cənubi Azərbaycan mətbuatı tarixi*. Bakı, 2009.

Müciri. (1949-a). Qoy İran mürtəceləri bir daha rüsvay olsunlar! “Azərbaycan” qəzeti, 15 yanvar, 3.

Müciri. (1948-a). Mürtəcelər heç bir cinayətdən çəkinmirlər. “Azərbaycan” qəzeti, 24 iyul, 1.

Müciri. (1949-b). Tehran hökuməti milli abidələrimizin düşmənidir. “Azərbaycan” qəzeti, 22 yanvar, 4.

Müciri. (1948-b). Təbriz. “Azərbaycan” qəzeti, 10 iyul, 1, 3.

Pişəvəri S.C. (2005). *Xatirələr*. Tərtib edən: Y.Kənani (Nəminli). Bakı: ADF nəşriyyatı.

Pişəvəri S.C. (2016). *Məqalə və çıxışlarından seçmələr* (Təbriz 1945-1946-cı illər). Bakı.

Rəhimli (Bije) Ə. (2019). *662 saylı məhbus – S.C.Pişəvəri Seyid Cəfər Pişəvəriyə aid istintaq materialları (1930-1940)* Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi.

Səməndər. (1945). Dözülməz cinayət . “Azərbaycan” qəzeti, 12 sentyabr, 1.

Sərdariniya S. (2014). İrəvan müsəlman sakinli vilayət olmuşdur. Tərc: İ.Quliyev. Bakı.

Şeyx Məhəmməd Xiyabani (1945-a). “Azərbaycan” qəzeti, 1 noyabr, 2.

Şeyx Məhəmməd Xiyabani. (1945-b). “Azərbaycan” qəzeti, 5 noyabr, 2.

Şeyx Məhəmməd Xiyabani. “Təcəddüd” ruznaməsinin tarixçəsi”. (1945). “Azərbaycan” qəzeti, 11 dekabr, 2.

Şəkibxan F. (1948). Cavanları boğmaq istəyirlər. “Azərbaycan” qəzeti, 13 noyabr, 1, 4.

Şəmidə Ə. (1948). İranda həqiqi mətbuat azadlığı yoxdur. “Azərbaycan” qəzeti, 28 aprel, 4.

Şəmidə Ə. (1949). Məzhəbi təbliğatdır, ya siyasi fəaliyyət! “Azərbaycan” qəzeti, 22 yanvar, 4.

Tağıyeva Ş., Rəhimli (Bije) Ə., Bayramzadə S. (2000). *Güney Azərbaycan (məlumat kitabı)*. Bakı: Orxan.

Tehran hökuməti milli abidələrimizin düşmənidir. (1949). “Azərbaycan” qəzeti, 22 yanvar, 4.

Tərbiyət M. (1967). *Danişməndani-Azərbaycan*. Bakı.

Vilayi M. (1948). Azərbaycan Demokrat Firqəsi Məramnaməsinin təhlili. “Azərbaycan” qəzeti, 24 yanvar, 4.